AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 04.08.2015 |
| Qeydiyyat nömrəsi | 0003 |
| Adı | Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2011-ci il 30 dekabr tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən baxılan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar"da dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 15.08.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 420.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201508040003 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 14.08.2015 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndini rəhbər tutaraq, "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanının 3-cü hissəsinin icrası məqsədi ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2011-ci il 30 dekabr tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən baxılan inzibati xətaların törədilməsinə görə inzibati tənbehlərin tətbiqi haqqında Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "tarixli" sözündən sonra "389 nömrəli" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

"1.4-1. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi inzibati xəta törətmiş şəxsin elektron kabinetində yerləşdirilməsi, onun məlumatlandırılması, inzibati xəta haqqında iş üzrə qərardan şikayət verilməsi və inzibati cərimələrin elektron qaydada ödənilməsi imkanının təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"də göstərilən məlumatları real vaxt rejimində "ASAN ödəniş" sisteminə ötürür.";

1.3. 4.4-cü bənddə "müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara" sözləri "müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına" sözləri ilə əvəz edilsin.

2. Hüquq və insan resursları şöbəsinə (B.Məmmədov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Nazirin müşavirinə (M.Əmirov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

5. Elektron idarəçiliyin inkişafı şöbəsinə (E.Aslanov), İnfrastrukturun inkişafı şöbəsinə (M.İsmayılov), Tənzimləmə şöbəsinə (Ə.Təmirov) və İnformasiya cəmiyyətinin inkişafı şöbəsinə (İ.Əliyev) tapşırılsın ki, bu qərardan irəli gələn məsələlərin həll olunmasını təmin etsinlər.

6. Sənədlərlə iş və təminat şöbəsinə (İ.Tağıyev) tapşırılsın ki, bu qərarın aidiyyəti üzrə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının struktur bölmələrinə və onun strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

**Nazir** **Əli Abbasov**